hissə.Bakı, 2017.

2. Tağıyev A.H., Səfərov Q.Ə.. İnnovasiya layihələrinin menecmenti. Bakı, 2013.

3. Tağıyev A.H. İnnovasiya. Bakı, 2018.

4. Tağıyev A.H., Əmirov İ.B.. İnnovasiya menecmenti. Bakı, 2010.

5. Qasımov F.H., Nəcəfov Z.M.. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, 2009.

6. Qasımov İ., Cəbiyev F.. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı, 2017.

7. Niftullayev V.. Sahibkarlığın əsasları. Bakı, 2002.

8. Texnoparklar: Kiçik sahibkarlar üçün bələdçi. Bakı, 2015.

## İNNOVATİV SAHİBKARLIĞIN İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU

*Kərimli Günel Fazil qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Etimologiyası fransız və alman dillərinə əsaslanan "sahibkarlıq" sözünün mənası "öhdəyə götürmək" deməkdir. Bu mürəkkəb fenomen üçün müxtəlif təriflər verilmişdir. Riçard Kentillon sahibkarları gələcəkdə gəlir götürmək məqsədilə risk etməyə hazır olan şəxslər kimi təyin edərək, sahibkarları risk edən, Jan-Batist Se isə sahibkarları iqtisadi inkişaf üçün aparıcı faktor hesab edərək, iqtisadi resursları daha daha yüksək məhsuldarlığa malik sahələrə yönləndirən, müxtəlif istehsal faktorlarını informasiya və təcrübə ilə birləşdirərək istehsal prosesini təşkil edən şəxslər adlandırmışlar. Cozef Şumpeter sahibkarlara innovator və dəyişiklik yaradan şəxslər kimi tərif vermişdir. Sahibkar lider və menecerdir. Çünki zaman keçdikcə müəssisələr inkişaf edir və inkişafın müəyyən mərhələsində sahibkar liderə və menecerə çevrilir. Bu səbəbdən də sahibkarlar idarəetmə sahəsində yüksək bilik və bacarıqlara malik olmalıdır. Sahibkarlar yüksək nailiyyət qazanmaq ehityacı olan, üstün olmaq motivasiyası olan, özünə daim güclü inamı olan, nikbin, innovativ, yaradıcı, təxəyyüllü, həyəcanlı və profilaktik insanlardır.

Sahibkarlıq fəaliyyətinin müxtəlif meyarlar baxımından müxtəlif formaları vardır ki, bu formalara aşağıdakılar aiddir:

1. Mülkiyyət məsuliyyətinə görə - fərdi, kollektiv, dövlət sahibkarlığı;
2. Fəaliyyətin fiziki və dəyər göstəricilərinin həcminə görə - mikro, kiçik, orta, iri sahibkarlıq;
3. Fəaliyyət növlərinə görə - istehsal, kommersiya, maliyyə, konsultativ, vasitəçilik sahibkarlığı;
4. Elmi-texniki tərəqqi nailiyyətlərini özündə əks etdirməsinə görə - klassik və innovasiya sahibkarlığı.

Sahibkar - innovativ baxışı olan və onu bazara çıxarma qabiliyyətinə malik olan bir insandır. Əlbəttə ki, yenilik edən sahibkar və kiçik biznes sahibi olan şəxsləri bir-birində fərqləndirmək lazımdır. Sahibkarlar daim yenilik etməyi bacarmalı və məhsulları bazara çıxarmaq üçün yollar tapmalıdırlar. Buna dünyanın bütün ölkələri üzrə misallar və nümunələr göstərmək mümkündür. İnnovasiyalar

yalnız texnologiyalara deyil, həm də yaratdığı sosial və iqtisadi dəyərlərə əsaslanır.

Qərb ölkələrində yenilik və texnologiya ifadələri sinonim ifadələr kimi səslənir və sahibkarlıq anlayışının ikinci bir aspekti məhz texnologiyanın səviyyəsinə aiddir.

Qlobal Sahibkarlıq və İnkişaf İnstitutu tərəfindən hər il hazırlanan Qlobal Sahibkarlıq İndeksinin 2019-cu il hesabatında da qeyd edildiyi kimi innovativ sahibkarlıq iqtisadi artımla müsbət əlaqəlidir. Sahibkarlar öz təsəvvürlərində daim böyüyə biləcək və yüksək inkişaf edən müəssisələr canlandırır və bu təsəvvürlərini də reallaşdıra bilmək qabiliyyətinə malikdirlər. İnnovativ sahibkarlar həm də insanların innovativ ixtiralarını kommersiya halına gətirməyi bacarırlar. Sahibkarlıq iqtisadi inkişafın ən vacib faktorlarından biri hesab olunur. Müstəqil və yaradıcı sahibkarlığın müasir iqtisadiyyatın inkişafındakı əhəmiyyətli rolu artıq bütün dünya siyasətçiləri, həm də iqtisadçıları tərəfindən qəbul edilmişdir. Tədqiqatlar göstərir ki, yeni məhsullar, yeni xidmətlər, yeni məşğulluq imkanları əsasən yeni təşəbbüskarlıq sayəsində mümkündür. Bu baxımdan sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və fərdlərin sahibkarlıq potensiallarının ortaya çıxarılmasının əhəmiyəti çox böyükdür. Fərdi və ictimai ehtiyacların təminatında sahibkarlıq fəlaiyyəti aparıcı rol oynayır.

Məlumdur ki, bütün iqtisadi fəaliyyətin əsasında insan tələbatı və bu tələbatların ödənilməsi üçün başlıca amil olan istehsal durur. İstehsalın baş verməsi üçün təbii sərvətlər, əmək, kapital və sahibkarlıq kimi bir çox istehsal amillərinin bir yerdə cəmlənməsi vacibdir. Bazar subyekti əmək, kapital və təbii sərvətləri uyğun bir şəkildə bir yerdə cəmləyən, insanların tələbatlarını ödəmək məqsədilə iqtisadi baxımdan faydalı mal və xidmətlər istehsal edən və ya ticarət edən, istehsal qazancını öz gəliri kimi qəbul edən, həm də zərər riskini öz üzərinə götürən istehsalat amilidir.

Sahibkarlıq və innovasiya mahiyyət etibarilə bir-biri ilə əlaqəlidir. Sahibkarlar öz yaradıcı ideyalarını həyata keçirmək məqsədilə istehsal amillərini bir araya gətirməklə iqtisadi sistemin əsasını təşkil edirlər. Rəqabətin olması sahibkarları daim yeniliklər axtarışında olmaqla yeniliklərə yönəlməyə və fərqli olmağa vadar edir. İnnovasiya yönümlü fəaliyyətdə zəif olan bazar subyektləri fəaliyyətlərini dayandırmağa məcbur olurlar və bununla da bu yerləri daha yeni ideyalara malik olan sahibkarlar tuturlar. Bu da iqtisadi inkişafın hərəkətverici qüvvəsini təşkil edir. Araşdırmalar göstərir ki, sahibkarlıq və innovasiya fəaliyyəti iqtisadi inkişafın davamlılığının təmin edilməsində olduqca önəmlidir.

İqtisadi artım ölkənin istehsal həcmindəki artımı və bununla bağlı reallaşan milli gəlir artımını ifadə edir. Qloballaşma dövründə iqtisadi artımın təmin olunmasında bir sıra amillərlə yanaşı sahibkarlıq və innovasiya faktorları da vacib hesab edilməyə başlanmışdır. İnnovativ sahibkarlığın iqtisadi artıma təsirini isə sahibkarların yeni müəssisələr yaratmaqla, bu müəssisələrdə yeni məşğulluq sahələrinin yaranması, rəqabəti inkişaf etdirməsi və texnologiya mübadiləsi vasitəsiə məhsuldarlığın artmasına səbəb olmaları kimi izah etmək olar. İnnovativ sahibkarlıq fəaliyyəti inkişaf etmiş ölkələrdə işsizlik səviyyəsinin azalması müşahidə edilir. Bu fəaliyyət nəticəsində ölkələr təbii sərvət olan əməyini səmərəli istifadə edərək, sosial fayda verməklə iqtisadiyyatlarının təməlini daha da möhkəmləndirirlər.

Sahibkarlıq fəaliyyətinin iqtisadi və ictimai həyata təsiri məşğulluğun təmin olunması ilə yanaşı, eyni zamanda adambaşına düşən gəliri və istehsalı artırır, işdə və sosial həyatda struktur dəyişikliklərə səbəb olur. Bu dəyişiliklərin əsasını isə

innovasiyalar təşkil edir. Qloballaşmaya məhkum qalan inkişaf etmiş ölkələrin iqtisadi inkişafı innovasiya fəaliyyəti ilə yaxından əlaqəlidir. Çünki planetdə mövcud məhdud resurslardan səmərəli istifadə edilməsi daha çox innovasiya yolu ilə mümkündür.

**Ədəbiyyat:**

1. Robert Wuebker , Zoltan J. Acs, Richard Florida "The Globalization of Innovation and Entrepreneurial Talent: The Changing Context of Venture Capital Investment".

2. Mühazirə 1. sahibkarliq və innovasiya: maliyyə vəsaitlərinin müvəffəqiyyətlə cəlb edilməsi üçün istiqamətverici amillər. URL: https://www.culturepartnership.eu/az/publishing/crossovers-and-fundraising/part-1 (accessed 10.10.2021).

## AZƏRBAYCANDA INNOVASIYA SAHIBKARLIĞININ INKIŞAF ŞƏRAITININ TƏHLILI

*Qarayev Maarif Şərif Oğlu, Iqtisad elmləri namizədi, dosent*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Son illərdə Azərbaycanda innovasiyalı iqtisadiyyata keçidi təmin edən tədbirlərin təşviqi və realaşdırılması strateji proqram və sənədlərdə, o cümlədənAzərbaycan:2020 пələcəyə вахış İnkişaf konsepsiyası və müxtəlif sektorları əhatə edən Strateyi Yol Xəritəsində öz əksini tapmışdır.

Qloballaşdırma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yenidən qurulması və istehsal sahəsində tətbiqi ölkələr üçün yeni problemlər yaradır. Bu baxımdan İnnovasiya fəaliyyətinin stimullaşdırılması və səmərəliliyinin artırılması, innovasiya strukturu çərçivəsində kiçik və orta sahibkarlıgın inkişafı üçün zəruri şəraitin yaradılması və elmi-tədqiqat bazasının inkişafı şox mühümdür.

Azərbaycanda hər il innovasiya müsabiqələri təşkil olunur. İnnovasiya layihələrinin qəbulunu asanlaşdırmaq üçün Asan Xidmətin İdeya bank platformasından istifadə olunur. Pandemiya səbəbindən İKT əsasında yeni innovasiyalı iqtisadiyyat sektorları inkişaf etdikcə, iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq, respublikada qeyri-neft sektorunun daha surətli inkişafına nail olmaq, neft-qaz ixracatından asılılığı azaltmaq, iqtisadiyyatın davamlı və tarazlı inkişafını təmin etmək üçün yüksək texnologiyalar sahəsi inkişaf etdirilməlidir. Yüksək texnologiyaların transferi, elmi-innovativ məhsulların kommersiyalaşdırılmasının genişləndirilməsi, investisiya qoyuluşlarının səmərəliliyini artırır, həm də sahələrarası strukturun optimallığını təmin edir.

Işğaldan azad olunmuş ərazilər üzrə Azərbaycanda regional inkişaf mərkəzlərinin təmin olunması müvafiq bölgələrdə iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrində ixtisaslaşmanın dərinləşdirilməsi hesabına ümumi iqtisadi artımın təmin olunmasına şərait yaradacaqdır.

Bugün Azərbaycan dünya iqtisadi sistemində xammal ixracatçısı olmağın səviyyəsini azaltmaq məqsədilə iqtisadiyyatın diversifikasiyasını sürətləndirməli, qeyri-neft sektorunun sürətli inkişafı və innovasiya əsaslı inkişafa nail olmalıdir. Ona görə də innovasiyaya, elmə, informasiyaya, biliyə əsaslanan innovasiyalı iqtisadiyyat sektorlarının problemləri dərindən araşdırılmalıdır. Belə ki, müasir şəraitdə ölkələrin